UOT 72.01

NİCABƏT İSLAMOVA*

# QARAQOYUNLU DÖVLƏTİNİN MƏDƏNİ HƏYATI

*Qara Yusifin ölümündən sonra oğlanları arasında gedən mübarizədə qalib gələrək taxta oturan Cahanşah dövlətin sərhədlərini Herata qədər uzatmaqla bərabər mədəniyyətin, memarlığın və incəsənətin digər növlərinin də inkişafına diqqət göstərmişdir. Qaraqoyunlu dövlətinin sərhədləri içərisinə daxil olmuş ərazilərdə bu dövlətə aid olduğu bildirilən tarixi əsərlər bu günə qədər qalmaqdadır. Həmin dövrə aid olan miniatürlərdə, tikili abidələrdə, türbələrdə türkmənlərə xas olan əlamətlərlə yanaşı teymurilərə və cəlairilərə xarakterik olan əlamətlərə də rast gəlmək mümkündür. Şeyx Üveys və Sultan Əhmədin hakimiyyətdə olduqları dövrdə çəkilmiş olan miniatürlərdə, tikilmiş türbələrdə, yazılmış kitablarda özünü bariz şəkildə biruzə vermişdir. Qaraqoyunluların kitab tərtibatı sahəsində əldə etdikləri ən böyük müvəffəqiyyət özünə məxsus ölçüsü və motivləri olan kitab miniatür üslubu olmuşdur. Bu üslub türkmən üslubu adı ilə tanınmışdır. Qaraqoyunluların dövründən bu günümüzə qədər gəlib çatmış ən qiymətli əsər Təbrizdəki Göy məsciddir. Göy məscidin tikilməsi Cahanşahın hakimiyyəti dövründə başlsaa Ağqoyunlu hökmdarı Sultan Yaqubun dövründə başa çatmışdır. Bu səbəbdən də məscidin kitabəsində Sultan Yaqubun adı yazılmışdır. Qaraqoyunlu türkmən miniatür sənətinin Cahanşahın və oğlu Pirbudağın dövründə çox inkişaf etdiyini deyə bilərik. Ümumiyyətlə Qaraqoyulu hökumdarları daim müharibələrdə olsalar da mədəniyyətin və incə sənətin müxtəlif sahələrinin inkişafına da diqqət göstərməyə çalışmışlar.*

**Açar sözlər:** *Qaraqoyunlu, Herat, Göy məscid, Təbriz, miniatür.*

XIV əsrin ortalarında Azərbaycan və Şərqi Anadolu ərazisində Qaraqoyunlu adlı türk tayfası tarix səhnəsinə çıxaraq ərazilərini genişləndirməyə başladılar. İran, İraqi-Ərəb və Şərqi Anadoludakı Monqol hakimiyyəti çökməyə başladıqdan sonra bu ərazilərdə yaşayan oğuz türk tayfaları siyasi fəaliyyətlərini genişləndirməyə başladılar. Bu tayfalar arasında Qaraqoyunlu tayfası daha aktiv fəaliyyət göstərirdi. Dövrün yerli tarixçiləri və bir sıra Qərb tarixçiləri öz əsərlərində Osmanlı torpaqlarından bəhs edərkən "diyari rum" ifadəsini Qaraqoyunlu torpaqlarından bəhs edərkən isə "türkmən ölkəsi" ifadəsindən istifadə etmişlər. Bununla yanaşı həmçinin Qaraqoyunlulara Amid türkmənləri də deyirdilər. XIV əsrin ortalarında siyasi səhnəyə çıxan Qaraqoyunlu tayfası çox qısa bir müddət ərzində şəx¬si igidlikləri sayəsində Xorasanı çıxmaq şərti ilə bütünlüklə İranı və İraqı da əhatə edən böyük bir imperatorluq qura bilmişdilər. Qaraqoyunlu dövlətinin siyasi, iqtisadi, həmçinin diplomatiyasının araşdırılması istiqamətində tədqiqatlar aparılsa da, dövlətdə mədəniyyət və incəsənətin inkişafı məsələsi az tədqiq olunmuşdu. Qaraqoyunlu hökmdarları da Cəlairi hökmdarları kimi, incəsənətə qiymət vermiş və memarlıq və incəsənət sahəsində fəaliyyət göstərənləri himayə etmişdirlər. Qaraqoyunlu dövlətində mədəniyyətin və incəsənətin inkişafına mühüm yer verilmişdir. Xüsusən də Cahanşahın hakimiyyəti dövründə dövlət mədəni inkişafın qızıl dövrünü yaşamışdır.

Qara Yusifin ölümündən sonra oğlanları arasında gedən mübarizədə qalib gələrək taxta oturan Cahanşah dövlətin sərhədlərini Herata qədər uzatmaqla bərabər mədəniyyətin, memarlığın və incəsənətin digər növlərinin də inkişafına diqqət göstərmişdir.

Qaraqoyunlu dövlətinin sərhədləri içərisinə daxil olmuş ərazilərdə bu dövlətə aid olduğu bildirilən tarixi əsərlər bu günə qədər qalmaqdadır. Muhsin Məcidin fikrincə, Qaraqoyunlular dövlət təşkilatları və idarə sistemlərində olduğu kimi, mədəniyyət və sənət sahəsində də Cəlairilərin mirasına sahib olmuşdular (5, 443). Həmin dövrə aid olan miniatürlərdə, tikili abidələrdə, türbələrdə türkmənlərə xas olan əlamətlərlə yanaşı teymurilərə və cəlairilərə xarakterik olan əlamətlərə də rast gəlmək mümkündür. Şeyx Üveys və Sultan Əhmədin hakimiyyətdə olduqları dövrdə çəkilmiş olan miniatürlərdə, tikilmiş türbələrdə, yazılmış kitablarda özünü bariz

şəkildə biruzə vermişdir. Bunu da qeyd etmək lazımdır ki, həm Şeyx Üveysin, həmdə Sultan Əhmədin özləri də rəssamlığa meyl göstərmişlər. Onların hakimiyyətləri dövründə bu ərazilərdə cəlairi və türkmən üslubları bir-biriləri ilə qaynayıb qarışaraq kitab cildləməsində və kitabların mövzularına uyğun olan miniatürlərin çəkilməsində yeni bir üslub əmələ gətirmişlər. Əsasən 865 (1460)-cı ildən etibarən bu ərazilərdə yazılan əl yazmaların tərtibində türkmən üslubu hakim olmağa başladı. Teymuri hökmdarlarının tez ölməsi səbəbilə Qaraoyunluların önü açılmış və onlar get- gedə güclənməyə başlamışdırlar. Bu da memarlıq və sənətin digər sahələrinin inkişafına təsirsiz ötüşməmişdir. Qaraqoyunlularda miniatür sənəti Cahanşahın və Pir Budağın dövründə daha da inkişaf etmişdir. Təəssüf ki, nə Cahanşahın nə də Pirbudağın dövründə tərtib olunmuş miniatürlər bu günümüzə qədər gəlib çatmamışdır. Lakin həmin dövrə aid olan əlyazmalarda həm Cahanşahın həm də Pirbudağın adlarının bir sənət hamisi olaraq çəkilməsi onların Qaraqoyunlu dövlətində sənətin inkişafına nə qədər əhəmiyyət verdiklərini göstərir. Qaraqoyunluların kitab tərtibatı sahəsində əldə etdikləri ən böyük müvəffəqiyyət özünə məxsus ölçüsü və motivləri olan kitab miniatür üslubu olmuşdur. Bu üslub türkmən üslubu adı ilə tanınmışdır.

Köçəri həyat tərzi keçirən buna görə də köçəri həyata aid mədəniyyəti mənimsəyən qaraqoyunlular oturaq həyata keçdikdən sonra mərkəzləşmiş dövlət qurmuşlar. Bunun nəticəsində də artıq şəhər memarlığı, incəsənəti inkişaf etmişdir. Qaraqoyunluların bu ərazilərdə sənətin və mədəniyyətin inkişafında mühüm rolu olmuşdur. Qaraqoyunluların geopolitik cəhətdən qarışıq olan ərazilərdə hökm sürmələri, demək olar ki davamlı olaraq müharibələrdə olmaları həmin dövlətdə tikilmiş memarlıq əsərlərinin yaradılmasının qarşısını kəsən bir əngəl olmuşdur. Teymurilərin hücumları nəticəsində də bu əsərlərin dağıdılması səbəbiylə bu günümüzə qədər həmin əsərlər gəlib çatmamışdır. Qaraqoyunlu hökmdarlarının saraylar tikdirmədiyinin düşünmək olmaz. Çox güman ki, onlar da bir cox memarı əsərlər tikdirmişlər. Lakin həmin əsərlərin çox hissəsi bu günümüzə qədər gəlib çatmamışdır. Qaraqoyunluların dövründən bu günümüzə qədər gəlib çatmış ən qiymətli əsər Təbrizdəki Göy məsciddir. Göy məscidin tikilməsi Cahanşahın hakimiyyəti dövründə başlsada Ağqoyunlu hökmdarı Sultan Yaqubun dövründə başa çatmışdır. Bu səbəbdən də məscidin kitabəsində Sultan Yaqubun adı yazılmışdı. Qaraqoyunlulardan bizə gəlib çatan digər tikili abidələrə günbəzləri misal göstərmək olar. Bu günbəzlərə əsasən Van gölü, Diyarbəkir, Mardin ətrafında daha çox təsadüf edilir. Bu günbəzlərdə Səlcuqlu və İlhanlı tərzini görmək mümkündür. Qaraqoyunlu hökmdarlarından biri olan Cahanşahın hakimiyyətdə olduğu dövrdə tikilən ən məşhur abidə 1468-ci ildə tikintisi başa çatmış Müzəffəriyyə memarlıq kompleksidir. Kömpleksin içərisinə xanəgah, kitabxana, mədrəsə, türbə daxildir. Kompleksin içərisinə həmçinin Cahanşahın hamamı da daxil olmuşdur. Lakin, çox təəssüf ki, həmin kompleks bu günümüzə qədər gəlib çatmamışdır. Bu geniş miqyaslı ərazini əhatə edən abidədən günümüzə yalnız Göy məscid gəlib çatmışdır. Məscidin giriş hissəsindəki tağın üstünə Müzəffəriyyə kompleksinin tikilmə tarixi göstərilmiş və "aciz qul Neymətullah bin Məhəmməd əl-Bəvvab" sözləri yazılmışdır. Burada adı yazılmış Neymətullah Bəvvab dövrünün görkəmli xəttatlarından biri olmuşdur. Bu dövrə aid olan bir çox tikilidə də onun adı həkk olunur. Çox güman ki, bu şəxs həmin dövrdə tikilən binalarda olan dekorativ işləri görmüşdür. Məscidin memarı haqqında heçbir məlumat verilməmişdir. XI əsr müəlliflərindən olan Qazi Əhməd də öz risaləsində Müzəffəriyyə tikintisinin yazılarının hamısının Neymətullah Bəvvab tərəfindən yazıldığını qeyd edir (6, 2). XX əsrin əvvəllərində yaşamış alman alimi E. Dits Göy məscidin memarının da Şah Məscidin kitabəsində adı yazılmış Əhməd Təbrizi olduğunu bildirir (6, 2). Lakin, Cəfər Qiyasi bu fikirlə razılaşmayaraq Göy məscid kimi böyük və ehtişamlı bir abidəni tikən bir memarın bundan sonra ortabab səviyyədə olan Şah məscidi kimi bir məscidi inşa etməsinin inandırıcı olmadığını bildirir (6, 2).
Hafiz Hüseyin isə bildirir ki, Cahanşahın arvadı olan Xatunxan Bəyim Küçəçi kəndindən Şeyxlər





nəslindən olan Xacə Məhəmməd ibn Osmanı Müzəffəriyyə kompleksinin əsasını qoymaq üçün seçmişdir. O qeyd edir ki, Xacə Əli tikinti üzrə çox bacarıqlı olduğu üçün Xatunxan Bəyim məhz onu bu kompleksin tikintisini ona həvalə etmişdir. XX əsrin 70-ci illərində burada aparılan bərpa zamanı kaşı bir lövhə tapılmışdır. Buradan tapılan lövhədə isə nəsx xətti ilə qabarıq hərflərlə İzzədin Qapuçi ibn Məlikin adı yazılmışdır. Beləliklə də Göy məscidin tikintisində iştirak edən şəxsləri müəyyən etmək mümkün olmuşdur. Aydın olmuşdur ki, kompleksin baş memarı Xacə Əli Küçəçi, dekorativ işlərin və yazıların müəllifi xəttat Mövlanə Neymətullah Bəvvab, baş icraçı isə İzzədin Qapuçi olmuşdur (6, 3).



Övliya Çələbi Cahanşahın Təbrizdə çox görkəmli əsərlər inşa etdirdiyini yazır. O qeyd edir ki, Təbrizin ən gözəl binalarına Cahanşah hamamı, Cahanşah karvansarası, Cahanşah imarəti, Cahanşah binası daxildir (6,3). Göy məscid Təbrizin ən gözəl memarlıq nümunəsi olaraq səyyahların, alimlərin və buraya gələn turistlərin diqqətini özünə çəkməyi bacarmışdır.

1453-cü ildə Qaraqoyunlular Şirazı tutduqdan sonra şəhərdə onların dövrü başlandı. Bu tarixdən etibarən Şirazda yazılan əlyazmalarda türkmən üslubu üstünlük təşkil etdi. Bir müddətdən sonra isə tamamən bu üsluba keçildi. Şahruxun ölümündən sonra Qaraqoyunlu türkmənlərinin önü açıldı. Qaraqoyunlu türkmən miniatür sənətinin Cahanşahın və oğlu Pirbudağın dövründə çox inkişaf etdiyini deyə bilərik. Lakin, çox təəssüf ki həm Cahanşahın, həm də Pirbudağın hakimiyyəti dövründə yazılmış əsərlərə çəkilmiş miniatürlər bu günümüzə qədər gəlib çatmamışdır. Bu dövrə aid olan miniatürsüz əsərlərdə Pirbudağın adı bir sənət hamisi kimi cəkilmişdir. Həmin dövrdə Şirazda və Yezddə bir çox miniatür əsərlər yaranmışdır. Həmin dövrdə yazılmış əsərlərə çox gözəl miniatürlər çəkilmişdir. Hətta Azərbaycan miniatür sənəti həmin dövrdə o qədər inkişaf etmişdir ki, onu Herat miniatür məktəbi ilə müqayisə edilirdi. Bu dövrdə cəkilmiş miniatür əsərləri içərisində 1410-1420-ci illərə aid olan Nizaminin "Xosrov və Şirin" həmcinin "Xəmsə" nüsxələrinə cəkilmiş miniatürlər xüsusilə diqqəti cəlb edir (5, 463). Ümumiyyətlə Qaraqoyulu hökumdarları daim müharibələrdə olsalar da mədəniyyətin və incəsənətin müxtəlif sahələrinin inkişafına da diqqət göstərməyə çalışmışlar.

## ƏDƏBİYYAT


1. Doğanay A., Doğanay B. "Akkoyunlu ve Karakoyunlu Devletlerinde Mimarî ve Sanat Üslûbu Üzerine Bir Değerlendirm" M.Ü. Sosyal Bilimler Enstitüsü, İslam Tarihi ve Sanatları Anabilim Dalı. İnsan ve toplum bilimleri araştırmaları dergisi c, 6, Sayı: 1, 2017 s. 652-682
2. Atılgan O. XV yüzyılda İran ve cevresinde gelişen miniatur üslubları ve sorunları üzerine bir etüt. Gazi Universitesi, fen-edebiyyat fakültesi, sanat tarihi bölümü, Ankara, 2004, s. 347-361.
3. Nəcəfli T. Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətləri. Bakı, 2012, 603 s.
4. Muhsin M. Karakoyunlular Döneminde sanat hayatı, Yüzüncü Yıl Universitesi, Fen-Edebiyat fakültesi. 2002, s. 57-72.

Самое ценное произведение, достигшее эпохи гарагоюнлуна и по сей день, - это Голубая мечеть в Тебризе. Строительство Голубой мечети было завершено в период правления Джаханшаха, когда правитель Аггоюнлу Султан Ягубун. Поэтому в книге мечети написано имя султана Якуба. Мы можем сказать, что миниатюрное искусство Гарагоюнлу туркмена развивалось в эпоху Джаханшаха и сына Пирбудага. В целом, Гарагоюльские правители, хотя и постоянно находились в войнах, старались уделять внимание развитию различных сфер культуры и изысканного искусства.

**Ключевые слова:** *Гарагоюнлу, Пирбудаг, Герат, Голубая мечеть, Тебриз, миниатюр.*

*(Filologiya üzrə elmlər doktoru Fərman Xəlilov tərəfindən təqdim olunmuşdur)*

**Daxilolma: İlkin variant 05.06.2019**
**Son variant 23.09.2019**